ETHNIC COMPOSITION OF THE POPULATION OF IRAVAN UYEZD (1849-1917)
(ON THE BASES OF RUSSİAN LANGUAGE SOURCES)

Ziyad Amrahov[10]
UDC 93/94
KBT 63.3(0)53

Keywords:

Azerbaijan
Iravan province
Iravan district
Iravan city
Tsarist Russia
Population
Ethnic composition
City

ABSTRACT

The article examines the ethnic composition of the population of the Iravan uyezd of the Iravan province, which was one of the provinces of Azerbaijan during Tsarist Russia, from 1849 to 1917. Researches show that the Turkmenchay Treaty not only changed the geographical view of Azerbaijan, also Article 15 of the treaty had a very serious impact on the future ethnic view of the most of its regions. Mass resettlements to the territories of the former Iravan and Nakhchivan khanates from both the Gajars and the Ottoman Empire led to demographic changes in the later Iravan province. These changes, which have manifested themselves in most parts of the province since 1850, were marked by ethnic cleansing towards the early twentieth century. In particular, the genocides committed by Armenian terrorist groups in the region in 1905-1906, as well as in the following period, led the local population to flee from one region to another. As a result, there was a sharp decline in the number of Tatars in some districts of the province, the number of Tatars, and a sharp increase in the number of foreigners, Armenians. However, Russian-language sources published in different years of the XIX-XX centuries confirm that the main ethnic group of the province, the numerical advantage, were still the Azerbaijani Turks (Tatars). We can clearly see this from the cameral descriptions of the central cities, uyezd centers, uyezds, districts, villages of the province, as well as the results of the population census.

[10]. Head of the Department of Historiography and Source Studies of Institute of History of Science of ANAS, Doctor of Philosophy in History, Associate Professor
zamrahov@gmail.com,
https://orcid.org/0000-0001-6853-3311

Received: 15.01.2021
Accepted: 07.03.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

İRƏVAN QƏZASININ ƏHALİSİNİN ETNİK TƏRKİBİ (1849-1917-Cİ İLLƏR)
(RUSDİLLİ MƏNBƏLƏR ƏSASINDA)

Ziyad Əmrahov[11]

UOT 93/94
KBT 63.3(0)53

Açar sözlər:

Azərbaycan
İrəvan quberniyası
İrəvan qəzası
İrəvan şəhəri
Çar rusiyası
Əhali
Etnik tərkib
Şəhər

ANNOTASİYA

Məqalədə çar Rusiyası dövründə Azərbaycanın quberniyalarından biri olan İrəvan quberniyasının İrəvan qəzasının 1849-cu ildən 1917-ci illədək əhalisinin etnik tərkibi araşdırılır. Aparılan araşdırmalar göstərir ki, Türkmənçay müqaviləsi təkcə Azərbaycanın coğrafi mənzərəsini dəyişdirmədi, müqavilənin 15-ci maddəsi isə onun əsasən, əksər bölgələrinin gələcək etnik mənzərəsinə çox ciddi təsir etdi. Keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə kütləvi şəkildə həm Qacarlar, həm də Osmanlı imperiyasından köçürülmələr sonradan yaradılmış İrəvan quberniyasında demoqrafik dəyişikliklərə gətirib çıxardı. Quberniyanın əksər bölgələrində 1850-ci ildən özünü göstərən bu dəyişikliklər XX əsrin əvvəllərinə doğru etnik təmizləmə ilə müşahidə olundu. Xüsusilə, 1905-1906-cı illər, eləcə də sonrakı dövr ərzində erməni terrorçu dəstələrinin bölgədə soyqırımlar törətməsi, yerli əhalinin bir bölgədən digər bölgəyə qaçmasına gətirib çıxarmışdı. Nəticədə quberniyanın bəzi qəzalarının, qəza şəhərlərinin yerli əhalisinin, tatarların sayında kəskin azalma, gəlmələrin, ermənilərin sayında isə kəskin artma müşahidə olunurdu. Bununla belə, XIX-XX əsrin müxtəlif illərində işıq üzü görmüş rusdilli mənbələr quberniyanın əsas etnosunun, say üstünlüyünün yenə də Azərbaycan türkləri (tatarlar) olduğunu təsdiqləyir. Bunu biz quberniyanın mərkəzi şəhərləri, qəza mərkəzləri, qəzaları, mahalları, kəndləri üzrə kameral təsvirlərdən, eləcə də əhali siyahıyaalınmasının nəticələrindən aydın şəkildə görə bilərik.

[11]. AMEA Elm Tarixi İnstitutunun Tarixşünaslıq və Mənbəşünaslıq şöbəsinin müdiri, Tarix üzrə fəlsəfə doktoru, dosent
zamrahov@gmail.com,
https://orcid.org/0000-0001-6853-3311

Məqalə redaksiyaya daxil olmuşdur: 15.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 07.02.2021
Çapa qəbul edilmişdir: 07.03.2021

ЭТНИЧЕСКИЙ СОСТАВ НАСЕЛЕНИЯ ИРЕВАНСКОГО УЕЗДА (1849-1917 ГГ.)
(на основе русскоязычных источников)

Зияд Амрахов[12]
УДК 93/94
КВТ 63.3(0)53

Ключевые слова:

Азербайджан, Иреванская губерния, Иреванский уезд, Город Иреван, Царская Русь, Население, Этнический состав, Город

АННОТАЦИЯ

В статье исследуется этнический состав населения Иреванского уезда Иреванской губернии, которая была одной из провинций Азербайджана в царской России с 1849 по 1917 год. Исследования показывают, что Туркменчайский договор не только изменил географический облик Азербайджана, но и изменил его. также статья 15 договора оказала очень серьезное влияние на будущее этническое восприятие большинства его регионов. Массовые переселения на территории бывшего Иреванского и Нахчыванского ханств как из Гаджаров, так и из Османской империи привели к демографическим изменениям в более поздней Иреванской губернии. Эти изменения, которые проявились в большей части провинции с 1850 года, были отмечены этническими чистками в начале двадцатого века. В частности, геноцид, совершенный армянскими террористическими группировками в регионе в 1905-1906 годах, а также в последующий период, вынудил местное население бежать из одного региона в другой. В результате резко сократилась численность татар в некоторых районах губернии, численность татар и резко возросла численность иностранцев, армян. Однако русскоязычные источники, опубликованные в разные годы XIX-XX веков, подтверждают, что основной этнической группой провинции, численным преимуществом, по-прежнему были азербайджанские тюрки (татары). Это видно из камеральных описаний центральных городов, уездных центров, уездов, районов, сел губернии, а также по результатам переписи населения.

[12]. Заведущий отделом Историографии и
Источниковедения Института Истории Науки НАНА, Доктор философии по истории, доцент
zamrahov@gmail.com,
https://orcid.org/0000-0001-6853-3311

GİRİŞ

Türkmənçay müqaviləsi təkcə Azərbaycanın coğrafi mənzərəsini dəyişdirmədi, müqavilənin 15-ci maddəsi isə onun əsasən, əksər bölgələrinin gələcək etnik mənzərəsinə də ciddi təsir etdi. Keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə kütləvi şəkildə həm İran, həm də Osmanlı imperiyasından köçürülmələr sonradan yaradılmış İrəvan quberniyasında demoqrafik dəyişikliklərə gətirib çıxardı. Quberniyanın əksər bölgələrində 1850-ci ildən özünü göstərən bu dəyişikliklər XX əsrin əvvəllərinə doğru etnik təmizləmə ilə müşahidə olundu. Bununla belə, XIX əsrin müxtəlif illərində işıq üzü görmüş rusdilli mənbələr quberniyanın əsas etnosunun, say üstünlüyünün yenə də Azərbaycan türkləri (tatarlar) olduğunu təsdiqləyir. Bunu biz quberniyanın mərkəzi şəhərləri, qəza mərkəzləri, qəzaları, mahalları, kəndləri üzrə kameral təsvriləri, eləcə də əhali siyahıyaalınmasının nəticələrindən aydın şəkildə görə bilərik.

İrəvan quberniyasının əhalisi ilə bağlı ilkin məlumatlar 1853-cü ildə Sankt-Peterburqda işıq üzü görmüş "Rusiya imperiyasının hərbi-statistik icmalı"nın 16-cı cildinin 6-cı hissəsi olan "İrəvan quberniyasının icmalı"dır. İcmaldan məlum olur ki, İrəvan quberniyasının ümumi əhalisi 240.000 nəfər idi.

İrəvan qəzasının etnik tərkibi

İrəvan quberniyasının ilk qəzalarından biri İrəvan qəzası idi. 1853-cü il məlumatlarına görə, İrəvan şəhərində 12.850 nəfər qeydə alınmışdı. Şəhərdə 2606 ev var idi ki, bunun da 1169 evi erməni, 1437 evi tatar idi [1, s. 186]. İrəvan şəhərində fərdi evlərin sayı 2606, dövlət mülkiyyətində olan evlərin sayı 2, ictimai mülkiyyətdə olan evlərin sayı 1 idi. Ermənilər içərisində vergi ödəyənlərin sayı 1039 nəfər, tatarlar isə 1239 nəfər idi. Müqayisə üçün qeyd edək ki, 1829-cu ildə İrəvan şəhərinin əhalisi 11453 (bunlardan erməni 4132, 2148 kişi, 1984 qadın: tatar, kişi: 3749, qadın: 3582) nəfər qeydə alınmışdı. Şəhərdə 2751 ev var idi ki, bunun da 944 evi erməni, 1807 evi tatar idi [2, 1-ci buraxılış, şöbə 1, s. 40-41]. Göründüyü kimi məlumatlar şəhər əhalisinin təxminən 20 il ərzində 1000 nəfər artdığını göstərir. Şəhərdə yenə də tatarlar (Azərbaycan türkləri) üstünlük təşkil edirdi. Bununla belə, məlumatların müqayisəsi zamanı şəhərdə olan evlərin sayında azalma olduğu da diqqəti cəlb edir. Bu göstərici əvvəlki illərdə 2751 olduğu halda, sonrakı illərdə 2606 olaraq qeydə alınmışdı.

Zəngibasar mahalında məskunlaşmış əhalinin sayı 29.472 nəfər idi ki, bunun da 16.296 nəfəri kişi, 13.176 nəfəri qadın idi. Bunlardan başqa 2.270 nəfər köçəri var idi ki, bunun da 1.260 nəfəri kişi, 1.010 nəfəri qadın idi [1, cild 16, 6-cı hissə, s. 186]. Mahal üzrə ümumi əhalinin sayı köçərilərlə birlikdə 31742 nəfər idi [1, cild 16, 6-cı hissə, s. 186]. Zəngibasar mahalında 3.192 ev var idi.

Şərur mahalında məskunlaşmış əhalinin sayı 14609 nəfər idi ki, bunun da 8234 nəfəri kişi, 6375 nəfəri qadınların payına düşürdü [1, cild 16, 6-cı hissə, s. 186]. Bunlardan başqa 7544 nəfər köçəri var idi ki, bunun da 4192 nəfəri kişi, 3352 nəfəri qadınlar idi [1, cild 16, 6-cı hissə, s. 186]. Ümumilikdə mahalın əhalisinin sayı köçərilərlə birlikdə 22.153 nəfər idi [1, cild 16, 6-cı hissə, s. 187]. Şərur mahalında 2499 ev var idi.

Sərdarabad mahalında 18.705 nəfər məskunlaşmış əhali var idi. Bunlardan 9267 nəfəri kişi, 9438 nəfəri qadınların payına düşürdü [1, cild 16, 6-cı hissə, s. 187]. Bunlardan başqa mahalda 2433 köçəri var idi ki, bunun da 1205 nəfəri kişi, 1228 nəfəri qadın idi. Mahalın ümumi əhalisi köçərilərlə birlikdə 21138 nəfər idi [1, cild 16, 6-cı hissə, s. 187]. Sərdar-Abad sahəsində 3876 ev var idi.

Sürməli mahalında məskunlaşmış əhali 18220 nəfər idi ki, bunun da 8655 nəfəri kişi, 9565 nəfəri qadınların payına düşürdü. Bundan başqa mahalda 3454 nəfər köçəri əhali var idi ki, bunun 1706 nəfəri kişi, 1748 nəfəri qadın idi. Mahalın ümumi əhalisi köçərilərlə birlikdə 21674 nəfər idi [1, cild 16, 6-cı hissə, s. 187]. Sürməli sahəsində 2482 ev var idi. İrəvan qəzası üzrə evlərin sayı 12049 idi. Beləliklə, İrəvan qəzasının ümumi əhalisi bütün cinslər

üzrə 114.000 nəfərə çatırdı [1, cild 16, 6-cı hissə, s. 187].

1853-cü ildən sonra İrəvan qəzasında əhalinin etnik, dini, sosial və sinfi tərkibinin izlənilməsi və üzə çıxarılmasında 1879-cu ildə Tiflisdə işıq üzü görmüş "Qafqaz haqqında məlumat toplusu"nun 5-ci cildinin 1-ci hissəsi mühüm rol oynayır. Qafqaz Statistika Komitəsinin baş redaktoru N.Zeydliçin rəhbərliyi altında nəşr olunmuş toplunun 5-ci cildinin 1-ci hissəsi "Qafqaz diyarı əhalisinin yaşayış yerlərinin siyahısı (İrəvan, Kutaisi, Bakı, Stavropol və Tersk quberniyaları)" adlanır [9, cild 5, 1-ci hissə]. 1873-cü il məlumatları əsasında nəşr olunmuş mənbədə biz bütövlükdə İrəvan quberniyasında əhalinin sayı və etnik tərkibi, qəzalar üzrə kəndlərin bölgüsü, kəndlərdə yerləşən əhalinin sayını aydın şəkildə görə bilirik.

1873-cü il məlumatlarına görə, İrəvan quberniyasının İrəvan qəzasında aşağıdakı yaşayış məskənləri (kəndlər) var idi: Zəngi çayı və onun axarı boyunca Nurnus (38 ev, 200 kişi, 172 qadın, tatar, şiə), Novonikolaenka (24 ev, 97 kişi, 75 qadın, rus, malakan, subbotnik), Göykilsə (44 ev, 201 kişi, 166 qadın, erməni, qriqoryan: 37 ev, 148 kişi, 145 qadın, tatar, şiə), Zar (45 ev, 274 kişi, 216 qadın, tatar, şiə: 23 ev, 114 kişi, 91 qadın, erməni, qriqoryan), Kamal (46 ev, 227 kişi, 168 qadın, tatar, şiə), Arziç (12 ev, 54 kişi, 42 qadın, tatar, sünni: 21 ev, 57 kişi, 38 qadın, aysor, pravaslav: 8 ev, 43 kişi, 28 qadın, erməni, qriqoryan), Kitran (18 ev, 80 kişi, 80 qadın, tatar, şiə), Arınc (62 ev, 231 kişi, 217 qadın, erməni, qriqoryan), İtgin (35 ev, 138 kişi, 96 qadın, erməni, qriqoryan), Kanakir (158 ev, 583 kişi, 486 qadın, erməni, qriqoryan: 1 ev, 3 kişi, 2 qadın, kürd, sünni), Şinkovit (27 ev, 49 kişi, 54 qadın, erməni, qriqoryan), Xaraba Sarvanlar (8 ev, 24 kişi, 24 qadın, tatar, şiə), Cəfərabad (30 ev, 72 kişi, 64 qadın, erməni, qriqoryan), Göy kümbəz (27 ev, 93 kişi, 73 qadın, tatar, şiə), Varmazar (42 ev, 125 kişi, 111 qadın, erməni, qriqoryan), Arbat (74 ev, 280 kişi, 217 qadın, tatar, şiə), Kələli (51 ev, 137 kişi, 146 qadın, erməni, qriqoryan), Xaçanarax (99 ev, 377 kişi, 339 qadın, tatar, şiə), Şorlu-Dəmirçi (Dəmirçi-Şəlli, 125 ev, 751 kişi, 649 qadın, tatar, şiə), Şorlu-Mehmandar (160 ev, 884 kişi, 689 qadın, tatar, şiə), Donquzan (110 ev, 497 kişi, 408 qadın, tatar, şiə), Yuxarı Necilə (75 ev, 317 kişi, 223 qadın, tatar, şiə), Aşağı Necilə (125 ev, 613 kişi, 570 qadın, tatar, şiə), Sarvanlar (110 ev, 516 kişi, 454 qadın, tatar, şiə), Abülkənd (25 həyət, 109 kişi, 74 qadın, tatar, şiə), Uluxanlı (tatar, şiə), Reyhanlı (31 ev, 147 kişi, 130 qadın, tatar, şiə), Seyid kənd (50 ev, 188 kişi, 157 qadın, tatar, şiə), Saracalar (56 ev, 201 kişi, 158 qadın, tatar, şiə), Həsənli (74 ev, 283 kişi, 256 qadın), İlxı-Koruğu (25 ev, 131 kişi, 111 qadın, tatar, şiə), Şirabad (77 ev, 223 kişi, 207 qadın, erməni, qriqoryan), Qaraqışlaq (77 ev, 389 kişi, 346 qadın, tatar, şiə), Qırxbulaq çayı ətrafında Ağazor (26 ev, 81 kişi, 65 qadın, erməni qriqoryan), Başkənd (61 ev, 260 kişi, 234 qadın, erməni-kürd, qriqoryan-şiə), Təzəkənd (33 ev, 190 kişi, 180 qadın, erməni, qriqoryan), Yelqovan (39 ev, 172 kişi, 111 qadın, erməni, qriqoryan), Eylər (50 ev, 181 kişi, 178 qadın, erməni, qriqoryan), Aramus (110 ev, 417 kişi, 386 qadın, erməni, qriqoryan), Şahab (40 ev, 171 kişi, 120 qadın, erməni, qriqoryan), Moqub (erməni, qriqoryan), Avand (50 ev, 161 kişi, 155 qadın, erməni, qriqoryan), Cakran (83 ev, 402 kişi, 323 qadın, erməni, qriqoryan), Tutiya (39 ev, 177 kişi, 103 qadın, tatar, şiə), Damagirməz (30 ev, 150 kişi, 104 qadın, tatar, şiə), Küllücə (40 ev, 177 kişi, 96 qadın, tatar, şiə), Gəmriz (92 ev, 395 kişi, 318 qadın, erməni, qriqoryan), Məngis (32 ev, 182 kişi, 134 qadın, tatar, şiə), Küzəcik (11 ev, 55 kişi, 45 qadın, tatar, şiə), Oxçuberd (19 ev, 106 kişi, 74 qadın, tatar, şiə), Kərpicli (15 ev, 94 kişi, 47 qadın, tatar, şiə), Təcirabad (40 ev, 198 kişi, 181 qadın, erməni, qriqoryan), Şinkovit (31 ev, 64 kişi, 55, erməni, qriqoryan), Civriş (43 ev, 170 kişi, 131 qadın, erməni, qriqoryan), Norakovit (88 ev, 226 kişi, 174 qadın, erməni, qriqoryan), Təzəkənd (Zəngibasar, 174 ev, 419 kişi, 408 qadın, erməni, qriqoryan), Ağamzalı (51 ev, 170 kişi, 147 qadın, erməni, qriqoryan), Cavaçalı (42 ev, 128 kişi, 124 qadın, tatar, şiə), Kərətənə (9 ev, 29 kişi, 20 qadın, tatar, şiə), Çarbax (44 ev, 94 kişi, 107 qadın, tatar, şiə), Ağcaqışlaq (27 ev, 91 kişi, 93 qadın, tatar, şiə), Hacı Elyaz (131 ev, 572 kişi, 523 qadın, tatar, şiə), Uluxanlı (454 ev, 1549 kişi, 1419 qadın, tatar, şiə, 3 məscid, kişi və qadın məktəbi), Gərnibasar çayı ətrafında Artız (29 ev, 134

kişi, 87 qadın, tatar, şiə), Gerqaç (Ayrıvəng, 1 ev, 3 kişi, erməni, qriqoryan), Daşabdallar (10 ev, 31 kişi, 28 qadın), Əlimərdan (6 ev, 33 kişi, 19 qadın, tatar, şiə), Göy-Tatar (7 ev, 42 kişi, 26 qadın, tatar, şiə), Qoxt erməni (15 ev, 78 kişi, 74 qadın, erməni, qriqoryan), Baş-Gərni (92 ev, 421 kişi, 388 qadın, erməni, qriqoryan), Axararx (11 ev, 61 kişi, 53 qadın, tatar, şiə), Qaracoran (9 ev, 28 kişi, 29 qadın, tatar, şiə), Bozkəsə (12 ev, 52 kişi, 47 qadın, tatar, şiə), Kələdibi (18 ev, 96 kişi, 59 qadın, tatar, şiə), İmirzi (19 ev, 108 kişi, 80 qadın, tatar, şiə), Körpüqulaq (Torpaqqala, 22 ev, 89 kişi, 54 qadın, tatar, şiə), Bayburt (21 ev, 82 kişi, 61 qadın, tatar, şiə), Kiçik Gilanar (10 ev, 58 kişi, 38 qadın, tatar, şiə), Böyük Gilanar (16 ev, 86 kişi, 60 qadın, tatar, şiə), Əlincə (19 ev, 106 kişi, 91 qadın, tatar, şiə), Tərəkəmələr (4 ev, 19 kişi, 13 qadın, tatar, şiə), Əliqırıx (14 ev, 66 kişi, 44 qadın, tatar, şiə), Eranos (16 ev, 80 kişi, 53 qadın, tatar, şiə), Qurbağlı (14 ev, 69 kişi, 49 qadın, tatar, şiə), Canatlı (31 ev, 100 kişi, 73 qadın, tatar, şiə), Kotanlı (19 ev, 84 kişi, 72 qadın, tatar, şiə), Xaraba Kotanlı (12 ev, 34 kişi, 30 qadın, tatar, şiə), Molla Əhməd (4 ev, 12 kişi, 16 qadın, tatar, şiə), Çatmadağ (4 ev, 26 kişi, 15 qadın, tatar, şiə), Gərniçayın sağ sahilində Yuxarı Ağbaş (17 ev, 57 kişi, 34 qadın, tatar, şiə), Aşağı Ağbaş (88 ev, 236 kişi, 190 qadın, erməni, qriqoryan), Niaklu (20 ev, 60 kişi, 57 qadın, tatar, şiə, (3 ev erməni (8 kişi, 6 qadın), Alpava (20 ev, 51 kişi, 46 qadın, tatar, şiə), Haratlı (45 ev, 162 kişi, 141 qadın, tatar, şiə), İmanşalı (120 ev, 440 kişi, 395 qadın, erməni, qriqoryan (2 ev, 7 kişi, 10 qadın, tatar, şiə), Butamlı (57 ev, 214 kişi, 174 qadın, tatar, şiə), Qaradağlı (38 ev, 173 kişi, 158 qadın, tatar, şiə, 17 ev, 67 kişi, 39 qadın, erməni, qriqoryan), Yuxarı Quylasar (23 ev, 76 kişi, 81 qadın, erməni qriqoryan), Aşağı Quylasar (85 ev, 240 kişi, 223 qadın, aysor, pravoslav, 25 ev, 52 kişi, 43 qadın, erməni, qriqoryan, 1 ev, 3 kişi, 1 qadın, tatar, şiə (qeyd: kəndin adı 1884-cü ildə işıq üzü görmüş "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair məlumatlar toplusu"nun 4-cü cildində kəndin adı Köyləsər kimi yazılır. Məlumatlardan aydın olur ki, kənd İrəvan qəzasının Qərnibasar sahəsində yerləşirdi. Yaşlı sakinlər onu Köyləsər, Koyula-sar kimi çağırırdı. Sonuncu söz fars dilində idi və iki sözün birləşməsindən yaranmışdı. "Koyula" inam, etibar, "sar" isə baş, başlanğıc mənasında idi. Deməli, kəndin mənası inamlı, etibarlı yer idi. Fars hökmranlığı dövründə Qərnibasar sahəsində heç bir kənd yox idi. Yalnız Səfəvi hökmdarı Şah Abbasın zamanında bu sahəyə əhalinin köçürülməsi həyata keçirildi. Şah Abbasın əmri ilə imperiyanın digər ərazilərindən fars ailələri köçürülüb məskunlaşdırıldı. Kəndin adının digər bir mənası isə "Kala-asor", hasara alınmış qala mənasında idi [7, 4-cü buraxılış, şöbə 1, s. 284]. Mənbə daha sonra yazır ki, ikinci Rusiya-İran müharibəsi dövründə bu ərazidə 100-ə yaxın aysor evi var idi. Aysorlar bura Urmiya əyalətinin Supruqan, Muyşava, Yengicə, Koracala kəndlərindən köçürülmüşdü [7, 4-cü buraxılış, şöbə 1, s. 286]. Kənd şimaldan Qaraqoyunlu, qərbdən Sabunçu, cənubdan Toxanşalı kəndləri ilə sərhədlənirdi [7, 4-cü buraxılış, şöbə 1, s. 288].), Qaraqoyunlu (51 ev, 199 kişi, 156 qadın, tatar, şiə), Sabunçu (Şahzadə Əli-Sabunçu, 171 ev, 515 kişi, 436 qadın, tatar, şiə, 2 məscid), Tahanşalı (49 ev, 190 kişi, 185 qadın, erməni qriqoryan), Tamamlı (41 ev, 140 kişi, 145 qadın, erməni qriqoryan, 3 ev, 11 kişi, 13 qadın, tatar, şiə), Qırx-Bozovan (25 ev, 54 kişi, 57 qadın, erməni, qriqoryan, 1 ev, 4 kişi, 4 qadın, kürd, sünni), Ağcaqışlaq (26 ev, 85 kişi, 67 qadın, erməni, qriqoryan), Mehrablı (18 ev, 57 kişi, 44 qadın, erməni, qriqoryan), Doqquz (41 ev, 205 kişi, 185 qadın, erməni, qriqoryan, 27 ev, 89 kişi, 70 qadın, tatar, şiə), Zöhrablı (28 ev, 89 kişi, 75 qadın, erməni, qriqoryan), Dvin Aysor (41 ev, 137 kişi, 141 qadın, aysor, pravoslav), Danabaşı Mehrab (20 ev, 64 kişi, 59 qadın, erməni, qriqoryan), Mehrab- Kürd kənd (23 ev, 73 kişi, 79 qadın, erməni, qriqoryan, 1 ev, 7 kişi, 5 qadın, kürd, sünni), Torpaqqala (40 ev, 125 kişi, 115 qadın, tatar, şiə), Ayazlı (64 ev, 182 kişi, 179 qadın, erməni, qriqoryan, 9 ev, 30 kişi, 25 qadın, tatar, şiə), Qulam-Əli-Bozovan (49 ev, 174 kişi, 170 qadın, erməni, qriqoryan), Axund-Buzovan (35 ev, 110 kişi, 100 qadın, tatar, şiə), Dvin-Kord (49 ev, 200 kişi, 162 qadın, erməni, qriqoryan, 1 ev, 3 kişi, 1 qadın, kürd, sünni), Dvin (65 ev, 213 kişi, 179 qadın, erməni, qriqoryan, 19 ev, 56 kişi, 43 qadın, tatar, şiə, 4 ev, 15 kişi, 11 qadın, kürd, sünni), Ərdəşir (121

ev, 421 kişi, 411 qadın, erməni, qriqoryan, 3 ev, 17 kişi, 10 qadın, kürd, sünni), Bəkcağazlı (106 ev, 495 kişi, 428 qadın, erməni, qriqoryan, 3 ev, 10 kişi, 12 qadın, tatar, şiə, 1 ev, 2 kişi, 3 qadın, kürd, sünni), Məsumlu (59 ev, 175 kişi, 185 qadın, tatar, şiə), Qaraqəmzəli (53 ev, 194 kişi, 178 qadın, erməni, qriqoryan, 29 ev, 111 kişi, 57 qadın, tatar, şiə), Çiydamlı (110 ev, 426 kişi, 356 qadın, erməni, qriqoryan, 19 ev, 80 kişi, 75 qadın, tatar, şiə), Başnalı (65 ev, 238 kişi, 224 qadın, erməni, qriqoryan, 11 ev, 41 kişi, 44 qadın, tatar, şiə), Yamaclı (36 ev, 114 kişi, 100 qadın, tatar, şiə), Uğurbəyli (55 ev, 178 kişi, 171 qadın, erməni, qriqoryan, 16 ev, 56 kişi, 48 qadın, tatar, şiə), Çinəxanlı (93 ev, 302 kişi, 233 qadın, tatar, şiə), Dəlilər (60 ev, 252 kişi, 241 qadın, erməni, qriqoryan, 16 ev, 58 kişi, 57 qadın, tatar, şiə), Gödəkli (57 ev, 262 kişi, 244 qadın, erməni, qriqoryan), Kəmərli (178 ev, 662 kişi, 602 qadın, erməni, qriqoryan, 90 ev, 303 kişi, 260 qadın, tatar, şiə), Darğalı (116 ev, 414 kişi, 353 qadın, erməni, qriqoryan, 4 ev, 12 kişi, 10 qadın, tatar, şiə), Cəfərli-Cünnüt (32 ev, 168 kişi, 109 qadın, tatar, şiə), Qafarlı (74 ev, 303 kişi, 212 qadın, tatar, şiə), Novruzlu (117 ev, 431 kişi, 396 qadın, erməni, qriqoryan, 11 ev, 67 kişi, 48 qadın, tatar, şiə), Yuva (179 ev, 642 kişi, 573 qadın, erməni, qriqoryan, 29 ev, 99 kişi, 87 qadın, tatar, şiə), Vediçay ətrafı dağ kəndləri Qaratorpaq (23 ev, 88 kişi, 90 qadın, tatar, şiə), Xnut (15 ev, 67 kişi, 47 qadın, tatar, şiə), Cirmanis (55 ev, 288 kişi, 257 qadın, tatar, şiə), Bağçaçı (28 ev, 132 kişi, 104 qadın, tatar, şiə), Məmmədabad (6 ev, 18 kişi, 16 qadın, tatar, şiə), Ciyin Qaraqoyunlu (44 ev, 205 kişi, 171 qadın, tatar, sünni), Camışbasan (10 ev, 55 kişi, 39 qadın, tatar, şiə), Ağkilsə (13 ev, 67 kişi, 44 qadın, tatar, şiə), Məngük (21 ev, 11 kişi, 89 qadın, tatar, şiə), Zimmi (29 ev, 100 kişi, 84 qadın, tatar, şiə), Gül-Cikil (20 ev, 83 kişi, 77 qadın, tatar, şiə), Kosus (15 ev, 93 kişi, 58 qadın, tatar, şiə), Xosrov (15 ev, 96 kişi, 59 qadın, tatar, şiə), And (9 ev, 58 kişi, 48 qadın, tatar, şiə), Ağasıbəyli (11 ev, 52 kişi, 48 qadın, kürd, sünni), Axıs (33 ev, 122 kişi, 120 qadın, tatar, şiə), Armık (46 ev, 223 kişi, 189 qadın, tatar, şiə), Yuxarı Qarabağlar (16 ev, 74 kişi, 61 qadın, tatar, şiə), Aşağı Qarabağlar (80 ev, 403 kişi, 351 qadın, tatar, şiə), Keşişdağ (14 ev, 46 kişi, 51 qadın, kürd, sünni), Dağnas (8 ev, 30 kişi, 29 qadın, tatar, şiə), Gerapis (13 ev, 64 kişi, 49 qadın, tatar, şiə), Qaraxaç (31 ev, 154 kişi, 170 qadın, tatar, şiə, 29 ev, 150 kişi, 126 qadın, erməni, qriqoryan), Qadılı (49 ev, 229 kişi, 160 qadın, tatar, şiə), Zincirli (91 ev, 320 kişi, 387 qadın, erməni, qriqoryan), Şahablı (55 ev, 260 kişi, 177 qadın, tatar, şiə), Çəngli (6 ev, 35 kişi, 22 qadın, tatar, şiə), Qotuz (19 ev, 111 kişi, 77 qadın, tatar, şiə), Daşlı (24 ev, 83 kişi, 64 qadın, tatar, şiə), Vedi-ulya (bir çox rusdilli qaynaqlar [11, s. 537] da eyni adla verir) (Vedibasar, Böyük və Kişik Vedi, 241 ev, 890 kişi, 853 qadın, tatar, şiə, 1 məscid), Gorovan (36 ev, 149 kişi, 95 qadın, tatar, şiə), Yengicə (18 ev, 104 kişi, 85 qadın, tatar, şiə), Qaralar (58 ev, 253 kişi, 190 qadın, tatar şiə), Şirazlı (19 ev, 100 kişi, 50 qadın, tatar, şiə), Catkran (26 ev, 115 kişi, 97 qadın, tatar, şiə; 8 ev, 28 kişi, 25 qadın, kürd, sünni), Taytan (18 ev, 91 kişi, 75 qadın, tatar, şiə), Rehanlı (23 ev, 114 kişi, 92 qadın, erməni, qriqoryan), Davalı (217 ev, 917 kişi, 843 qadın, erməni, qriqoryan; 19 ev, 113 kişi, 94 qadın, tatar, şiə; 24 ev, 113 kişi, 96 qadın, kürd, sünni), Avşar (115 ev, 500 kişi, 386 qadın, tatar, şiə), Halisə (138 ev, 476 kişi, 388 qadın, tatar, şiə), Sərxanlı (38 ev, 146 kişi, 142 qadın, tatar, şiə), Asin (11 ev, 46 kişi, 33 qadın, tatar, şiə), Araz boyu kəndlər: Vedi-sufli (Kiçik Vedi, 94 ev, 360 kişi, 279 qadın, tatar, şiə), Xorvirab (1 ev, 3 kişi, erməni, qriqoryan), Şıxlar (79 ev, 371 kişi, 278 qadın, tatar, şiə), Əli-Məmməd qışlağı (83 ev, 331 kişi, 276 qadın, tatar, şiə), Şidli (106 ev, 453 kişi, 353 qadın, tatar, şiə), Çanaxçıçay vadisi boyunca: Yuxarı Çanaxçı (41 ev, 143 kişi, 131 qadın, tatar, şiə), Aşağı Çanaxçı (74 ev, 386 kişi, 288 qadın, erməni, qriqoryan), Kaşxa (34 ev, 166 kişi, 138 qadın, erməni, qriqoryan), Biralu (30 ev, 223 kişi, 181 qadın, erməni, qriqoryan), Keşişverən (26 ev, 163 kişi, 125 qadın, erməni, qriqoryan), Günnüt-Cəfərli (21 ev, 97 kişi, 81 qadın, tatar, şiə), Çivandərə (11 ev, 58 kişi, 55 qadın, kürd, sünni), Kərki (13 ev, 75 kişi, 56 qadın, tatar, şiə), Sədərək (387 ev, 1635 kişi, 1239 qadın, tatar, şiə, 3 məscid, poçt məntəqəsi), Buruki Kürd İcması: Torul (116 ev, 546 kişi, 455 qadın, kürd, sünni), Kürd-Ömər (49 ev, 205 kişi, 225 qadın, kürd, sünni), Aşağı Kürd-Ömər (53 ev, 210 kişi, 183 qadın, kürd, sünni), Əzizan (102 ev, 415 kişi, 352 qadın, kürd,

sünni), Borlan (60 ev, 315 kişi, 225 qadın, kürd, sünni), Orta Kürd Ömər (48 ev, 110 kişi, 115 qadın, kürd, sünni), Reyhanlı (31 ev, 112 kişi, 92 qadın, kürd, sünni), Qarasu (81 ev, 289 kişi, 191 qadın, kürd, sünni), Əbdərəb (45 ev, 155 kişi, 141 qadın, kürd, sünni), Komık (60 ev, 206 kişi, 163 qadın, kürd, sünni), Əlisoru (64 ev, 107 kişi, 100 qadın, kürd, sünni), Sutökülən (104 ev, 328 kişi, 256 qadın, kürd, sünni), Kül-təpə (60 ev, 360 kişi, 268 qadın, kürd, sünni) [9, cild 5, 1-ci hissə, s. 8-24].

1873-cü il məlumatları əsasında naturalist, statistik, etnoqraf Nikolay Karloviç Zeydliçin baş redaktorluğu ilə Tiflisdə 1879-cu ildə işıq üzü görmüş "Qafqaz haqqında məlumatlar toplusu"nun 5-ci cildinin 1-ci hissəsindən aydın olur ki, İrəvan quberniyasının İrəvan şəhərində 2.552 ev, 6.400 kişi, 5.538 qadın, cəmi, 11.938 nəfər, İrəvan qəzasında 11.457 ev, 45.513 kişi, 38.661 qadın, cəmi: 84.174 nəfər əhali var idi.

Quberniyanın 5 şəhərində 8.794 ev, qəzalarnda 62.943 ev var idi. Quberniyanın şəhərlərində əhalinin sayı, 25.283 kişi, 22.360 qadın, quberniyanın qəzalarında əhalinin sayı, 264.216 kişi, 226.871 qadın, ümumi əhali sayı 538.730 nəfər idi [9, cild 5, 1-ci hissə, s. 106].

1873-cü il məlumatlarına əsasən, İrəvan şəhərinin etnik tərkibi, rus: 75 kişi, 75 qadın, gürcü: 1 kişi, 1 qadın, erməni: 3202 kişi, 2757 qadın, polyak: 1 kişi, qadın-, tatar: 3.108 kişi, 2.697 qadın, yəhudi: 13 kişi, 8 qadın, İrəvan qəzası üzrə, rus: 97 kişi, 75 qadın, erməni: 15.760 kişi, 14.024 qadın, tatar: 25.426 kişi, 21.000 kişi, kürd: 3.719 kişi, 3.083 qadın, aysor: 511 kişi, 479 qadın idi [9, cild 5, 1-ci hissə, s. 114].

1873-cü il məlumatlarına əsasən, İrəvan qəzasında (şəhərlə birlikdə) əhalinin etnik tərkibi göstərilən dövr üzrə faiz nisbəti 322 rus (0, 184%), yunan: - (0 %), gürcü: 2 (0 %), erməni: 35.743 (37,2%), polyak: 1 (0%), alman: - (0%), tatar: 52.231 (54, 185%), kürd: 6.802 (7,707%), yəhudi: 21 (0, 202%), aysor: 992 (1,903%) idi [9, cild 5, 1-ci hissə, s. 115].

1873-cü il məlumatlarına görə, İrəvan quberniyasında dini etiqadlara görə əhalinin bölgüsü aşağıdakı kimi idi: Quberniya üzrə cəmi: pravaslav (2383), staroobryad (1), malakan (2811), prıqunı (393), duxoborı (136), subbotnik (744), erməni-qriqoryan (288958), erməni-katolik (4020), müsəlmanlar: şiə (203674), sünni (27596), Roma-katolik (214), lüteran (4), yəhudi (24), yezidi (7772) [9, cild 5, 1-ci hissə, s. 116].

Beləliklə, 1873-cü il məlumatları əsasında 1879-cu ildə nəşr olunmuş mənbənin məlumatlarından aydın olur ki, İrəvan qəzasının əhalisi 96.112 nəfər idi. Etnik tərkibinə görə, bunlardan 322 nəfəri rus, 2 nəfəri gürcü, 35.743 nəfəri erməni, 1 nəfəri polyak, 52.231 nəfəri tatar, 6.802 nəfəri kürd, 21 nəfəri yəhudi, 990 nəfəri isə aysor idi. Tatarlar 54%-lə birinci yerdə, ermənilər 37%-lə ikinci yerdə, kürdlər 7%-lə üçüncü yerdə gəlirdi.

İrəvan quberniyasında əhalinin 1873-cu ildən sonrakı sayı, artımı, etnik, yaş, cins və sosial tərkibinin öyrənilməsində 1886-cı ildə ailə siyahılarından çıxarışlar əsasında tərtib olunmuş və Tiflisdə 1893-cü ildə işıq üzü görmüş "Zaqafqaziya diyarının əhalisi haqqında statistik məlumatlar toplusu" mühüm rol oynayır [10].

1886-cı il məlumatlarına görə, **İrəvan şəhərində** 2.968 evdə 7.823 kişi, 6.915 qadın, ümumilikdə 14.738 nəfər əhali yaşayırdı. Şəhərdə yaşayan əhalinin etnik tərkibi belə idi: ruslar 88 ev (kişi 171, qadın 142 nəfər), yunanlar -, kürdlər -, ermənilər 1481 ev (kişilər 3.827, qadın 3.315 nəfər), tatarlar 1.385 ev (kişi 3.797, qadın 3.431 nəfər), digərləri 14 ev (28 kişi, 27 qadın) [10, şöbə 3].

1886-cı il məlumatlarına görə, İrəvan şəhərində pravaslav məzhəbi 150 kişi, 119 qadın, sektantlar 33 kişi, 37 qadın, erməni-qriqoryanlar 3.822 kişi, 3.312 qadın, müsəlmanlar: sünni -, şiələr: kişi 3.797, qadın 3.431, digər inanclılar kişi 21, qadın 16 nəfər idi [10, şöbə 3].

1886-cı il məlumatları göstərir ki, sosial tərkibinə görə İrəvan şəhərində mülkədar-zadəganlar 383 kişi, 282 qadın, bəylər: 290 kişi, 232 qadın, ruhanilər: erməni-qriqoryan kişilər 135, qadın 123, şiələr: kişi 22, qadın 22, fəxri vətəndaşlar, tacirlər: 180 kişi, 149 qadın, şəhər sakinlər: kişi 6.813, qadın

6.107, təqaüdçülər-, kəndlilər – idi [10, şöbə 3].

1886-cı il məlumatları əsasında 1893-cü ildə çap olunmuş "Zaqafqaziya diyarının əhalisi haqqında statistik məlumatlar toplusu"na görə, İrəvan qəzasına daxil olan sahələr üzrə əhalinin sayı, etnik tərkibi aşağıdakı kimi idi:

İrəvan qəzası Təcirabad polis sahəsində 2.650 evdə 11.515 kişi, 9.260 qadın, ümumilikdə 20.775 nəfər əhali yaşayırdı. Bunlardan 12 ev rus (34 kişi, 26 qadın), 1504 ev erməni (6.165 kişi, 5.258 qadın), 1023 ev tatar (4.981 kişi, 3.717 qadın), digərləri 110 ev (328 kişi, 253 qadın) idi [10, şöbə 3].

İrəvan qəzası Hacı Eyləs polis sahəsində 3.394 evdə 11.979 kişi, 9.577 qadın, ümumilikdə 21.556 nəfər əhali yaşayırdı. Bunlardan ruslar-, 768 ev erməni (2.208 kişi, 1.970 qadın), 2.626 ev tatar (9.771 kişi, 7.607 qadın), digərləri – idi [10, şöbə 3].

İrəvan qəzası Kəmərli polis sahəsində 4.048 ev var idi. Burada 14.039 kişi, 11.527 qadın, ümumilikdə 25.566 nəfər əhali var idi. Bunlardan ruslar-, 2.283 ev erməni (7.942 kişi, 6.828 qadın), 1.589 ev tatar (5.572 kişi, 4.258 qadın), digərləri 152 ev (433 kişi, 367 qadın) idi [10, şöbə 3].

İrəvan qəzası Dəvəli polis sahəsində 3.912 ev var idi. Burada 17.075 kişi, 13.904 qadın, cəmi 30.979 nəfər əhali yaşayırdı. Bunlardan ruslar-, 661 ev erməni (3.397 kişi, 2.658 qadın), 2.145 ev tatar (9.395 kişi, 7.579 qadın), digərləri 1106 ev (4.283 kişi, 3.867 qadın) idi [10, şöbə 3].

Ümumilikdə, İrəvan qəzasında 14.004 ev var idi. Kişilərin sayı 54.608, qadınların sayı 44.268 nəfər, cəmi 98.876 nəfər idi. Bunlardan 12 ev rus (34 kişi, 26 qadın), 5.216 ev erməni (19.712 kişi, 16.714 qadın), 7.383 ev tatar (29.719 kişi, 23.161 qadın), digərləri 1.393 ev (4.382 kişi, 5.190 qadın) idi [10, şöbə 3].

Məlumatlardan göründüyü kimi, İrəvan qəzasında 4 polis sahəsi var idi. Qəzanın 4 polis sahəsinin ikisində tatarlar üstün olduğu kimi, bütövlükdə qəza üzrə də tatarların say baxımından (Azərbaycan türkləri) üstünlüyü qalmaqda idi.

XIX əsrin sonunda İrəvan quberniyası və onun qəzalarının əhalisinin sayı, etnik, dini və sosial tərkibi haqqında məlumatların əsas ağırlıq yükünü 1897-ci ildə ümumrusiya ərazisində ilk dəfə həyata keçirilmiş əhali siyahıyaalınması daşıyır. Bununla bağlı olaraq imperiyanın bir çox quberniyaları kimi İrəvan quberniyasında da həyata keçirilmiş əhali siyahıyaalınması haqqında Rusiya imperiyası Daxili İşlər Nazirliyinin Statistika İdarəsi N.A.Troyniçkovonun redaktorluğu ilə 1905-ci ildə "İrəvan quberniyası" adlı toplu çap etmişdir.

1897-ci il əhali siyahıyaalmasının nəticələrinə görə, İrəvan quberniyasının qəza və şəhərlərində əhalinin sayı aşağıdakı kimi idi:

İrəvan qəzasının əhalisi 150.829 nəfər (kişi cinsi 82.899, qadın cinsi 67.980), İrəvan şəhərinin əhalisi 29.006 nəfər (17.328 kişi, 11.678 qadın) idi [8, s. 1].

1897-ci il əhali siyahıyaalınmasından məlum olur ki, İrəvan quberniyasının İrəvan qəzasının 150.879 nəfər əhalisinin 131.335 nəfəri yerli, 10.806 nəfəri İrəvan quberniyasının digər qəzalarından olanlar, 4.222 nəfəri digər quberniyalardan, 4.516 nəfəri isə digər dövlətlərdən olanlar idi [8, s. 2]. İrəvan şəhəri üzrə 29.006 nəfərin 16.673 nəfəri yerli, 6.878 nəfəri İrəvan quberniyasının digər qəzalarından olanlar, 3.512 nəfəri digər quberniyalardan, 1.943 nəfəri digər dövlətlərdən olanlar idi [8, s. 2].

1897-ci il əhali siyahıyaalınmasına görə, İrəvan qəzasında əhalinin sinfi tərkibində zadəganlar 3.712 nəfər, ruhanilər 1.208 nəfər, tacirlər 187 nəfər, kəndlilər 124.914 nəfər, xırda tacirlər 15.059 nəfər, kəndlilər 124.914 nəfər, xaricilər 4.154 nəfər, digər siniflər 1.645 nəfər idi. İrəvan şəhərində zadəganlar 2.170 nəfər, ruhanilər 334 nəfər, tacirlər 185 nəfər, xırda tacirlər 14.927 nəfər, kəndlilər 8.094 nəfər, xaricilər 2.122 nəfər, digərləri 1.174 nəfər idi [8, s. 2].

1897-ci il əhali siyahıyaalınmasına görə, İrəvan qəzasının etnik tərkibi aşağıdakı

kimi idi: ruslar 3.713 nəfər, ermənilər 58.148 nəfər, kürdlər 8.195 nəfər, yəhudilər 326 nəfər, tatarlar 77.491 nəfər, aysorlar 2.288 nəfər, digərləri 718 nəfər idi. İrəvan şəhərində ruslar 3.171 nəfər, 12.523 nəfər, kürdlər 64 nəfər, yəhudilər 204 nəfər, tatarlar 12.359 nəfər, aysorlar 81 nəfər, digərləri 604 nəfər idi [8, s. 3].

1897-ci ildə keçirilmiş Birinci Ümumrusiya əhali siyahıyaalınmasının nəticələrinə görə, İrəvan qəzasında dini məzhəblərə görə pravaslav 5.732 nəfər, staroobryadniklər 383 nəfər, Roma-katoliklər 324 nəfər, protestantlar 104 nəfər, müsəlmanlar 85.549 nəfər, yəhudilər 403 nəfər, xristianlar* (erməni-qriqoryan və erməni katoliklər) 58.341 nəfər, digərləri 43 nəfər, o cümlədən İrəvan şəhərində pravaslav məzhəbi 2.929, staroobryadniklər 335 nəfər, roma-katoliklər 312 nəfər, protestantlar 91 nəfər, müsəlmanlar 12.516 nəfər, yəhudilər 270 nəfər, xristianlar (erməni-qriqoryan və erməni-katoliklər) 12.537 nəfər, digərləri 16 nəfər idi [8, s. 3].

"Qafqaz təqvimi"nin 1 yanvar 1909-cu il tarixli məlumatlarına görə, İrəvan qəzasının əhalisi 120.486 nəfər idi. Bunun 64.553 nəfəri kişi, 55.933 nəfəri isə qadın idi. Qəzada 213 kənd var idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 516]. Birinci polis sahəsinə daxil olan Kanakir kənd cəmiyyətində 17 kənd var idi. Kanakir kənd cəmiyyətində əhali etnik tərkibinə görə, 77 nəfər rus (44 kişi, 33 qadın), 5.953 erməni (3.235 kişi, 2.718 qadın), 433 nəfər aysor (240 kişi, 193 qadın), 7 nəfər yunan (2 kişi, 5 qadın), 1.576 nəfər tatar (875 kişi, 701 qadın) var idi. Birinci polis sahəsinin Aramus kənd cəmiyyətinə 15 kənd daxil idi. Aramus kənd cəmiyyətində əhali etnik tərkibinə görə, 5.289 nəfər erməni (2.856 kişi, 2.433 qadın), 14 nəfər kürd (8 kişi, 6 qadın), 3.681 nəfər tatar (2.031 kişi, 1.650 qadın) var idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 516]. Birinci polis sahəsinin Başqərni kənd cəmiyyətinə 24 kənd daxil idi. Etnik tərkibinə görə burada 1.878 erməni (1.016 kişi, 862 qadın), 4.263 nəfər tatar (2.547 kişi, 1.716 qadın) var idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 516]. Məlumatlardan göründüyü kimi, İrəvan qəzasının birinci polis sahəsində 3 kənd cəmiyyəti, 56 kənd var idi. Birinci polis sahəsinin ümumi əhalisi 23.171 nəfər idi ki, bunun 12.854 nəfəri kişi, 10.317 nəfəri qadın idi. Birinci polis sahəsi, etnik tərkibinə görə, 77 nəfər rus, 13.120 nəfər erməni, 433 nəfər aysor, 7 nəfər yunan, 14 nəfər kürd, 9.520 nəfər isə tatar idi.

İrəvan qəzasının ikinci polis sahəsində üç kənd cəmiyyəti var idi. İkinci polis sahəsinə daxil olan İmanşalin kənd cəmiyyətində 16 kənd var idi. Etnik tərkibinə görə, buranın 1.380 nəfəri erməni (728 kişi, 652 qadın), 6.556 nəfəri tatar (3.433 kişi, 3.123 qadın) idi. İkinci polis sahəsinə daxil Şirabat kənd cəmiyyətində 15 kənd var idi. Etnik tərkibinə görə, buranın 1.445 nəfəri erməni (760 kişi, 685 qadın), 9.673 nəfəri tatar (5.018 kişi, 4.655 qadın) idi. İkinci polis sahəsinə daxil olan Norakavit kənd cəmiyyətində 12 kənd var idi. Etnik tərkibinə görə, buranın 2.422 nəfəri erməni (1.266 kişi, 1.156 qadın), 5.097 nəfəri tatar (2.689 nəfəri kişi, 2.408 nəfəri qadın) idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 517]. Məlumatlardan göründüyü kimi, İrəvan qəzasının 2-ci polis sahəsində 3 kənd cəmiyyəti, 43 kənd var idi. İkinci polis sahəsi üzrə əhalinin ümumi sayı 26.573 nəfər idi ki, bunun da 13.894 nəfəri kişi, 12.679 nəfəri qadın idi. Etnik tərkibinə görə, ikinci polis sahəsinin əhalisinin 21.326 nəfəri tatar (11.140 kişi, 10.186 qadın), 5.247 nəfəri erməni (2.754 kişi, 2.493) idi.

İrəvan qəzasının 3-cü polis sahəsində 4 kənd cəmiyyəti var idi. Üçüncü polis sahəsinin Köyləsər kənd cəmiyyətinə 12 kənd daxil idi. Buranın əhalisinin 3.807 nəfəri erməni (2.082 kişi, 1.725 qadın), 2.839 nəfəri tatar (1.502 kişi, 1.337 qadın), 751 nəfəri aysor (375 kişi, 376 qadın) idi. Üçüncü polis sahəsinin Uğurbəyli kənd cəmiyyətinə 6 kənd daxil idi. Buranın əhalisinin 3.677 nəfəri erməni (1.956 kişi, 1.721 qadın), 901 nəfəri tatar (479 kişi, 422 qadın) idi. Üçüncü polis sahəsinin Dvin-Aysor kənd cəmiyyətinə 23 kənd daxil idi. Buranın əhalisinin 4.707 nəfəri erməni (2.407 kişi, 2.300 qadın), 2.156 nəfəri tatar (1.187 kişi, 969 qadın), 511 nəfəri aysor (264 kişi, 247 qadın), 383 nəfəri kürd (212 kişi, 171 qadın) idi. Üçüncü polis sahəsinin Kəmərli kənd cəmiyyətinə 10 kənd daxil idi. Buranın əhalisinin 8.048 nəfəri erməni (4.269 kişi,

3.779 qadın), 1.254 nəfəri tatar (706 kişi, 548 qadın), 57 nəfəri kürd (35 kişi, 22 qadın) idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 517]. Məlumatlardan göründüyü kimi, İrəvan qəzasının 3-cü polis sahəsində 4 kənd cəmiyyəti, 51 kənd var idi. Üçüncü polis sahəsinin əhalisinin ümumi sayı 29.091 nəfər idi ki, bunun da 15.474 nəfəri kişi, 13.617 nəfəri qadın idi. Etnik tərkibinə görə, üçüncü polis sahəsinin əhalisinin 20.239 nəfəri erməni (10.714 kişi, 9.525 qadın), 7.150 nəfəri tatar (3.874 kişi, 3.276 qadın), 440 nəfəri kürd (247 kişi, 193 qadın), 1.262 nəfəri aysor (639 kişi, 623 qadın) idi.

İrəvan qəzasının 4-cü polis sahəsində 6 kənd cəmiyyəti var idi. Dördüncü polis sahəsinin Sədərək kənd cəmiyyətinə 3 kənd daxil idi. Buranın əhalisinin 4.616 nəfəri tatar (2.574 kişi, 2.042 qadın) idi. Dördüncü polis sahəsinin Vediçay kənd cəmiyyətinə 10 kənd daxil idi. Buranın əhalisinin 542 nəfəri kürd (295 kişi, 247 qadın), 6.648 nəfəri tatar (3.406 kişi, 3.242 qadın) idi. Karaxçay kənd cəmiyyətinə 12 kənd daxil idi. Buranın əhalisinin 173 nəfəri kürd (97 kişi, 76 qadın), 5.659 nəfəri erməni (3.159 kişi, 2.500 qadın), 3.330 nəfəri tatar (1.844 nəfəri kişi, 1.486 nəfəri qadın) idi. Dördüncü polis sahəsinin Armik kənd cəmiyyətinə 14 kənd daxil idi. Buranın əhalisinin 6.534 nəfəri tatar (3.493 kişi, 3.041 qadın), 2 nəfəri kürd (1 kişi, 1 qadın) idi. Dördüncü polis sahəsinin Dəvəli kəndə cəmiyyətinə 12 kənd daxil idi. Buranın əhalisinin 2.699 nəfəri erməni (1.422 kişi, 1.277 qadın), 254 nəfəri kürd (135 kişi, 119 qadın), 6.830 nəfəri tatar (3.611 kişi, 3.219 qadın) idi. Dördüncü polis sahəsinin Burukin kənd cəmiyyətinə 12 kənd daxil idi. Buranın əhalisi 4.364 nəfər kürd (2.294 kişi, 2.070 qadın) idi [3, 1-ci hissə, 4-cü şöbə, s. 517]. Məlumatlardan göründüyü kimi, İrəvan qəzasının 4-cü polis sahəsində 6 kənd cəmiyyəti, 63 kənd var idi. Dördüncü polis sahəsində əhalinin ümumi sayı 41.651 nəfər idi ki, bunun da 22.331 nəfəri kişi, 19.320 nəfəri qadın idi. Etnik tərkibinə görə, qəzanın 4-cü polis sahəsində ermənilər 8.358 nəfər (4.581 kişi, 3.777 qadın), kürd 5.335 nəfər (2.822 kişi, 2.513 qadın), tatarlar 27.958 nəfər (14.928 kişi, 13.030 qadın) idi.

Beləliklə, 1 yanvar 1909-cu il məlumatlarına görə, İrəvan qəzasının ümumi əhalisi (şəhərsiz) 120.486 nəfər idi. Etnik tərkibinə görə, tatarlar qəzanın hakim etnosu olaraq qalırdılar. İrəvan qəzasında 65.954 nəfərlə (35.395 kişi, 30.559 qadın) tatarlar birinci yerdə, 46.964 nəfərlə (25.156 kişi, 21.808 qadın) ermənilər ikinci yerdə, 5.789 nəfərlə (3.077 kişi, 2.712 qadın) kürdlər üçüncü yerdə qərarlaşmışdı.

1910-cu il məlumatlarına görə, İrəvan qəzasının əhalisi 156.444 nəfər idi. Bunun 32.369 nəfəri (19.235 kişi, 13.134 qadın) İrəvan şəhəri, 23.850 nəfəri (13.224 kişi, 10.626 qadın) 1-ci polis sahəsi, 27.362 nəfəri (14.311 kişi, 13.051 qadın) 2-ci polis sahəsi, 29.964 nəfəri (15.939 kişi, 14.025 qadın) 3-cü polis sahəsi, 42.899 nəfəri (23.000 kişi, 19.899 qadın) 4-cü polis sahəsinin payına düşürdü. Qəza ərazisində 16 kənd cəmiyyəti, 214 kənd var idi [4, 4-cü şöbə, s. 243].

1914-cü il 1 yanvar məlumatlarına görə, İrəvan qəzasının əhalisi 176.592 nəfər (93.609 kişi, 82.983 qadın) idi ki, bunun da 147.226 nəfəri (77.916 kişi, 69.310 qadın) qəzanın, 29.366 nəfəri (15.693 kişi, 13.673 qadın) İrəvan şəhərinin payına düşürdü [5, s. 257].

İrəvan quberniyasının əhalisinin sayı, etnik və cins tərkibi ilə bağlı 1914-cü il məlumatlarından o da aydın olur ki, quberniyanın şəhərlər də daxil olmaqla bütün ərazisində əhalinin qeydiyyatı zamanı həm daimi, həm də müvəqqəti yaşayanlar var idi. Belə ki, İrəvan qəzasının İrəvan şəhərinin 29.366 nəfər əhalisinin 20.204 nəfəri daimi (10.886 kişi, 9.318 qadın), 9.162 nəfəri (4.807 kişi, 4.355 qadın) müvəqqəti yaşayanlar idi. İrəvan qəzasının 147.226 nəfər əhalisinin 139.618 nəfəri (73.436 kişi, 66.182 qadın) daimi, 7.608 nəfəri (4.480 kişi, 3.128 qadın) müvəqqəti yaşayanlar idi [5, s. 257]. Məlumatlardan göründüyü kimi, İrəvan qəzasının əhalisinin sayı ilə bağlı 1910-cu ildən 1914-cü ilədək keçən 4 illik dövr ərzində 20.000 nəfərlik artım var idi. Əlbəttə, bütün bunlar təbii artım hesabına baş verməmişdi. Dörd il ərzində bu sayda təbii artımın olması da real görünmür. Bu artım gəlmələr hesabına çoxalmışdı. Xüsusilə, 1905-1906-cı illər, eləcə

də sonrakı dövr ərzində erməni terrorçu dəstələrinin bölgədə soyqırımlar törətməsi, yerli əhalinin bir bölgədən digər bölgəyə qaçmasına gətirib çıxarmışdı. Nəticədə quberniyanın bəzi qəzalarının, qəza şəhərlərinin yerli əhalisinin, tatarların sayında kəskin azalma, gəlmələrin, ermənilərin sayında isə kəskin artma müşahidə olunurdu. Belə ki, 1914-cü il yanvarın 1-nə olan məlumatlarda bütün bunların aydın şəkildə, birbaşa olmasa da, "müvəqqəti yaşayanlar" başlığı altında göstərilməsi, deyilənləri əyani şəkildə göstərir. Bununla belə, İrəvan qəzasının əhalisinin etnik tərkibində tatarların üstünlüyü qalırdı. Bunu aşağıdakı rəqəmlərdən görə bilərik.

1914-cü il 1 yanvar məlumatlarına görə, İrəvan qəzasının əhalisinin 2.379 nəfəri rus, 175 nəfəri (95 kişi, 81 qadın) polyak, alman və d., 219 nəfəri (121 kişi, 98 qadın) kartvel, 73.694 nəfəri (39.030 kişi, 34.664 qadın) erməni-qriqoryan, 37 nəfəri (19 kişi, 18 qadın) erməni-pravaslav, 13 nəfəri dağlı, 6.369 nəfəri (3.334 kişi, 3.035 qadın) kürd, 3.004 nəfəri (1.604 kişi, 1.400 qadın) asiyalı-xristian, 89.258 tatar-şiə (47.180 kişi, 42.078 qadın), 1.031 nəfəri tatar-sünni (598 kişi, 433 qadın), 63 nəfəri qaraçı (35 kişi, 28 qadın), 349 nəfəri (192 kişi, 157 qadın) idi [5, s. 254-257].

1914-cü il məlumatlarına görə, İrəvan şəhərinin əhalisinin 1.628 nəfəri rus, 172 nəfəri (92 kişi, 80 qadın) polyak, alman və d., 200 nəfəri (110 kişi, 90 qadın) kartvel, 15.523 nəfəri (8.319 kişi, 7.204 qadın, o cümlədən 11.260 nəfəri daimi (6.069 kişi, 5.191 qadın), 4.263 nəfəri müvəqqəti yaşayanlar (2.250 kişi, 2.013 qadın)) erməni-qriqoryan, 8 nəfəri (3 kişi, 5 qadın) erməni-pravaslav, 35 nəfəri (15 kişi, 20 qadın) kürd-müsəlman, 50 nəfəri (30 kişi, 20 qadın) Asiyalı-xristian, 11.496 nəfəri (6.186 kişi, 5.310 qadın) tatar-şiə, 4 nəfəri (2 kişi, 2 qadın) tatar-sünni, 250 nəfəri (130 kişi, 120 qadın) yəhudi idi [5, 254-257].

1916-cı il 1 yanvar məlumatlarına görə, İrəvan qəzasının ümumi əhalisi 205.617 nəfər idi. Bunun 51.286 nəfəri (25.548 kişi, 25.738 qadın) İrəvan şəhəri, 154.331 nəfəri isə (82.680 kişi, 71.651 qadın) İrəvan qəzasının digər bölgələrinin payına düşürdü [6, s. 221].

1916-cı il məlumatlarına görə, İrəvan qəzasının əhalisi daimi və müvəqqəti yaşayanlar olmaqla 2 qrupa ayrılmışdı. Belə ki, İrəvan şəhərinin 51.286 nəfər əhalisinin 22.001 nəfəri (11.959 kişi, 10.042 qadın) daimi, 29.285 nəfəri (13.589 kişi, 15.696 qadın) müvəqqəti yaşayanlar idi. İrəvan qəzasının digər bölgələrinin 154.331 nəfər əhalisinin 135.099 nəfəri (69.948 kişi, 65.151 qadın) daimi, 19.232 nəfəri (12.732 kişi, 6.500 qadın) müvəqqəti yaşayanlar idi [6, s. 221].

1916-cı il məlumatlarına görə, İrəvan şəhərinin əhalisinin 1.059 nəfəri rus, 203 nəfəri (111 kişi, 92 qadın) kartvel, 37.204 nəfəri erməni-qriqoryan (18.088 kişi, 19.116 qadın, o cümlədən 12.284 nəfəri daimi (6.780 kişi, 5.504 qadın), 24.920 nəfəri müvəqqəti yaşayanlar (11.308 kişi, 13.612 qadın)), 19 nəfəri (8 kişi, 11 qadın) erməni-pravaslav, 39 nəfəri kürd-müsəlman, 12.557 nəfəri (6.693 kişi, 5.864 qadın) tatar-şiə, 9 nəfəri (4 kişi, 5 qadın) tatar-müsəlman, 196 nəfəri (110 kişi, 86 qadın) yəhudi idi [6, s. 218-221].

1916-cı il məlumatlarına görə, İrəvan qəzasının digər bölgələrinin əhalisinin 1.435 nəfəri (780 kişi, 655 qadın) rus, 3 nəfəri (2 kişi, 1 qadın) kartvel, 69.710 nəfəri erməni-qriqoryan, o cümlədən 53.128 nəfəri (27.880 kişi, 25.248 qadın) daimi, 16.582 (11.219 kişi, 5.363 qadın) müvəqqəti yaşayanlar, 50 nəfəri (30 kişi, 20 qadın) dağlı, 6.724 nəfəri (3.412 kişi, 3.312 qadın) kürd-müsəlman, 1.916 nəfəri (974 kişi, 942 qadın) Asiyalı-xristian, 73.344 nəfəri (37.721 kişi, 35.623 qadın) tatar-şiə, 831 nəfəri (488 kişi, 343 qadın) tatar-sünni, 237 nəfəri (124 kişi, 113 qadın) qaraçı, 81 nəfəri (50 kişi, 31 qadın) yəhudi idi [6, s. 218-221].

Nəticə

Beləliklə, İrəvan qəzasının əhalisinin sayı, cinsi, etnik tərkibi ilə bağlı məlumatlar göstərir ki, İrəvan qəzasının əhalisi 1853-cü ildə 114.000 nəfər, 1873-cü ildə 96.112 nəfər, 1886-cı il ailə çıxarışları əsasında tərtib olunaraq 1893-cü ildə nəşr olunmuş məlumatlarda 113.614 nəfər, 1897-ci il əhali siyahıyaalınmasının nəticələrinə görə, 150.829 nəfər idi. Məlumatlardan o da aydın olur ki, 1853-cü ildən sonra İrəvan qəzasının əhalisinin sayında kəskin azalma var idi. Bu

azalmanın əsas səbəbi isə əvvəlcə İrəvan qəzasının 1859-cu ildə 2 qəzaya, İrəvan və Eçmiədzin qəzalarına bölünməsi, 1867-ci ildə isə Eçmiədzin qəzasının yaradılması idi. XIX əsrin sonlarından isə bölgədə erməni terrorçu şəbəkələrinin millətçilik zəminində yerli əhalini soyqırımlara məruz qoyması, sağ qalan əhalinin isə bölgəni tərk etməyə məcbur qalması İrəvan qəzasının əhalisinin həm say, həm də etnik tərkibində nəzərəçarpacaq dəyişikliklərə gətirib çıxarmışdı. Həm 1914-cü il, həm də 1916-cı ilə aid məlumatlardan İrəvan şəhəri də daxil olmaqla İrəvan qəzasında əhalinin ümumi say göstəricilərinin daimi və müvəqqəti yaşayanlara bölündüyü aydın olur. 1914-cü il məlumatları göstərir ki, İrəvan qəzasının əhalisi 176.592 nəfər, 1916-cı ildə isə İrəvan qəzasının əhalisi 205.617 nəfər idi. İrəvan qəzasının əhalisinin sayı ilə bağlı 1914-cü ildən 1916-cı ilədək keçən 2 illik dövr ərzində 20.000 nəfərlik artım var idi. Əlbəttə, bütün bunlar təbii artım hesabına baş verməmişdi. İki il ərzində bu sayda təbii artımın olması da real görünmür. Bu artım gəlmələr hesabına çoxalmışdı. Xüsusilə, 1905-1906-cı illər, eləcə də sonrakı dövr ərzində erməni terrorçu dəstələrinin bölgədə soyqırımlar törətməsi, yerli əhalinin bir bölgədən digər bölgəyə qaçmasına gətirib çıxarmışdı. Nəticədə quberniyanın bəzi qəzalarının, qəza şəhərlərinin yerli əhalisinin, tatarların sayında kəskin azalma, gəlmələrin, ermənilərin sayında isə kəskin artma müşahidə olunurdu. Bütün bunların həm 1914-cü il, həm də 1916-cı il məlumatlarında birbaşa olmasa da, “müvəqqəti yaşayanlar” başlığı altında göstərilməsi, xüsusilə bu başlıq altında ermənilərin çoxluq təşkil etməsi, deyilənləri əyani şəkildə göstərir. Bununla belə, istər bütövlükdə İrəvan qəzasının, istərsə də İrəvan şəhərinin əhalisinin etnik tərkibində tatarların üstünlüyü qalırdı.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Военно-статистическое обозрение Российской империи. 1837-1854. Том 16. Кавказский край. Эриванская губерния. СПб. 1853.
2. Зелинский С. Город Эривань. Сборник материалов для описания местностей и племен Кавказа. Выпуск 1-й. Тифлис: Типография Главного Управления Наместника Кавказа. 1881.
3. Кавказский Календарь на 1910 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1909.
4. Кавказский Календарь на 1912 год. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1911.
5. Кавказский Календарь на 1915 год. Отдел Статистический. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1914.
6. Кавказский Календарь на 1917 год. Отдел Статистический. Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказ, 1916.
7. Некоторые сведения о сель Койласар и об Айсорах // СМОМПК, Выпуск 4-й, Тифлис: Типография Канцелярия Главноначальствующого гражданскою частью на Кавказе. 1884.
8. Первая Всеобщая перепись населения Российской империи, 1897 г. LXXI. Эриванская Губерния. Под. Ред. Н.А. Тройницкого. Типография В.П. Мещарского. 1905.
9. Сборник сведений о Кавказе. Т. 5. Списки населенныхь месть Кавказского Края. Ч. 1. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область. Под. ред. Главного ред. Кавказского Статистического Комитета Н.Зейдлица. Тифлис: Типография Управления Наместника Кавказского, 1879.
10. Свод Статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис: Типография И.Мартиросианца, Орбел ул. Д. 1., 1893.
11. Шопен И. И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. В Типографии Императорской Академии Наук. СПб., 1852.